

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 180 (21.081)

*20 sentyabr 2014-cü il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


### *Rəsmi xronika*

Sentyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlunun təkbətək görüşü olub.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurlu inkişafı məmnunluqla vurğulandı. Əlaqələrimizin bundan sonra da yüksələn xətlə inkişaf edəcəyinə əminlik ifadə olundu. Qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlu mətbuata bəyanatlarla çıxış ediblər.

* * *

Sentyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevnelievin təkbətək görüşü olub.

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Bolqarıstan Prezidenti Rosen Plevnelievin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Həmin gün geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan-Bolqarıstan birgə bəyannaməsi imzalanıb.



## Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Rabitə və Yeni Texnologiyalar Nazirliyi adlandırılması haqqında
## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin
## Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi adlandırılsın.

2. "Naxçıvan Muxtar Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2004-cü il 28 fevral tarixli 126-II FR nömrəli Fərmanının adında, 1-ci və 2-ci hissələrində "İnformasiya Texnologiyaları" sözləri "Yeni Texnologiyalar" sözləri ilə əvəz edilsin.

3. "Bir sıra mərkəzi icra hakimiyyəti orqanlarının strukturlarının təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 22 iyul tarixli 209-III FR nömrəli Fərmanının 3-cü hissəsində və 3-cü əlavəsində "İnformasiya Texnologiyaları" sözləri "Yeni Texnologiyalar" sözləri ilə əvəz edilsin.

4. "Naxçıvan Muxtar Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 12 avqust tarixli 118-IV FR nömrəli Fərmanının:

4.1. Adında, preambulasında, 1-ci və 2-ci hissələrində "İnformasiya Texnologiyaları" sözləri "Yeni Texnologiyalar" sözləri ilə əvəz edilsin;

4.2. Həmin Fərmanla təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi haqqında Əsasnamə"nin adında və mətnində "İnformasiya Texnologiyaları" sözləri müvafiq olaraq "Yeni Texnologiyalar" sözləri ilə əvəz edilsin.

5. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 19 sentyabr 2014-cü il*

## Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları üçün müasir iş şəraiti yaradılmışdır





Sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin inzibati binası əsaslı yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, binada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, ötən əsrin 30-cu illərində tikilən və ümumi sahəsi 1092 kvadratmetr olan bina əvvəlki görkəmi saxlanılmaqla yenidən qurulmuşdur. Orijinal arxitektura quruluşu ilə seçilən bina zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarətdir.

Yenidənqurma işləri zamanı binanın interyeri müasir dizayn elementləri ilə zənginləşdirilmiş, yeni işıqlandırma, istilik və havalandırma sistemləri qurulmuşdur. Zirzəmi qatında laboratoriya, arxiv, kitabxana, bufet, qazanxana və digər yardımçı otaqlar vardır. Binanın birinci və ikinci mərtəbələrində isə zəruri mebel avadanlıqları ilə təchiz olunan iş otaqları və 50 yerlik iclas zalı yerləşir. Otaqlarda idarəetmə metodlarından istifadə etmək üçün bütün texniki imkanlar yaradılmış, kompüter dəstləri quraşdırılmış və internetə çıxış təmin olunmuşdur. Bu da nazirliyə daxil olan məlumat və müraciətlərin daha operativ qəbuluna, digər qurumlarla elektron sənəd mübadiləsinin həyata keçirilməsinə, eləcə də əməkdaşların fəaliyyət sahələrinə uyğun ətraflı informasiya toplamasına şərait yaradacaqdır.

Laboratoriyaya baxış zamanı məlumat verilmişdir ki, burada kənd təsərrüfatı bitkilərindən götürülmüş nümunələrin texniki göstəricilərini təyin etməyə imkan verən təcrübə avadanlıqları quraşdırılmışdır. Müasir laboratoriya avadanlıqları toxumun keyfiyyət göstəricilərini, məhsuldarlığını, nəmlik faizini, cücərmə qabiliyyətini əvvəlcədən yoxlamağa imkan verəcəkdir. Laboratoriyada qoyulan səyyar təcrübə avadanlığı isə əkin sahələrində toxumların texniki göstəricilərinin təyin edilməsində istifadə olunacaqdır.

Kitabxanaya kənd təsərrüfatına aid elmi ədəbiyyatlar, muxtar respublikanın əkin atlasları qoyulmuş, zəngin fond yaradılmışdır. Bu da əməkdaşların biliklərinin artırılmasına və nəzəri cəhətdən daha da zənginləşdirilməsinə imkan verəcəkdir.

Bina ilə tanışlıqdan sonra keçirilən açılış tədbirində Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Elşad Əliyev çıxış edərək demişdir ki, son 18 ildə muxtar respublikada kənd təsərrüfatının inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Qəbul edilmiş dövlət proqramlarına uyğun olaraq aparılan meliorasiya, irriqasiya tədbirləri, torpaq mülkiyyətçilərinə göstərilən lizinq xidməti, soyuducu anbarların yaradılması, istixanaların qurulması, meyvə-tərəvəz emalı müəssisələrinin işə salınması kənd təsərrüfatının dinamik inkişafına stimul vermişdir. Bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir ki, cari ilin məhsulu üçün 60 min 829 hektar sahədə əkin keçirilmişdir. Ümumi əkin sahəsinin 59 faizini taxıl əkini təşkil etmiş, sahələrdən 103 min tondan artıq məhsul yığılmışdır. Ümumilikdə, 2014-cü ilin 8 ayında kənd təsərrüfatının ümumi məhsulu 232 milyon manat təşkil etmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,3 faiz artıqdır. Hazırda muxtar respublikada 12 istixana, 19 soyuducu anbar, 62 quşçuluq, 10 balıqçılıq təsərrüfatı, 4 ət, 2 süd, 1 gön-dəri emal edən, 1 balıq konservi hazırlayan, eləcə də balın emalı və qablaşdırılması ilə məşğul olan müəssisələr fəaliyyət göstərir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kənd Təsərrüfatı Nazirliyinin inzibati binasının yenidənqurma işlərindən sonra istifadəyə verildiyini bildirmiş, bu münasibətlə kollektivi təbrik edərək demişdir: "Bu gün ölkəmizdə aqrar sahədə həyata keçirilən tədbirlər kənd təsərrüfatının inkişafına təkan vermiş, uğurlu nailiyyətlər qazanılmışdır. Ölkə Prezidentinin fərman və sərəncamları ilə təsdiq edilən dövlət proqramları, qəbul olunmuş qərarlar bu sahədə işlərin düzgün təşkilinə, kənd təsərrüfatının kompleks inkişafına səbəb olmuş, eləcə də kənd əməkçiləri üçün əlverişli şərait yaradılmışdır".

Ali Məclisin Sədri demişdir: "Ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə kənd təsərrüfatı sahəsində həyata keçirdiyi islahatlar bu gün öz bəhrəsini verməkdədir. Həmin dövrdə ulu öndərin rəhbərliyi ilə ölkəmizdə ilk dəfə olaraq muxtar respublikada torpaq islahatına başlanılmış, torpaqlar, zərərlə işləyən kolxoz və sovxozlar ləğv olunaraq özəlləşdirilmiş, kənd təsərrüfatının inkişafı yeni modeldə, torpaq mülkiyyətçiləri və fermerlərin yaradılması yolu ilə aparılmışdır.

*Ardı 2-ci səhifədə*

Ölkəmizə rəhbərliyi dövründə də ümummilli lider aqrar sektorun inkişafına hərtərəfli qayğı göstərmişdir. Bu gün dahi şəxsiyyətin müəyyənləşdirdiyi siyasi xəttin davam etdirilməsi digər sahələrlə yanaşı, kənd təsərrüfatının inkişafına da səbəb olmuşdur. Kənd təsərrüfatının inkişafına mütəmadi dövlət dəstəyinin göstərilməsi, bu sahədə çalışanların əməyinin qiymətləndirilməsi bol məhsul istehsalına və bunun nəticəsi olaraq ərzaq təhlükəsizliyinin təmin olunmasına imkan vermişdir".

"Hər bir ölkənin müstəqil inkişafını şərtləndirən əsas amillərdən biri də ərzaq təhlükəsizliyinin təmin olunmasıdır", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, bu gün ölkəmizdə qəbul olunmuş dövlət proqramlarının icrası və həyata keçirilən digər tədbirlər kənd təsərrüfatının ardıcıl inkişafını təmin etmişdir. Naxçıvan Muxtar Respublikası da Azərbaycanın tərkib hissəsi kimi yaradılan bu şəraitdən bəhrələnir, muxtar respublika aqrar region kimi inkişaf edir. Bu gün muxtar respublika əhalisinin 70 faizi kənd təsərrüfatı ilə məşğul olur. Muxtar respublikanın 550 min hektar ərazisinin 164 min hektarı kənd təsərrüfatına yararlıdır. 164 min hektar kənd təsərrüfatına yararlı ərazinin isə cəmi 52 min hektarı əkinəyararlıdır. Əkinəyararlı torpaqların məhdud olması onlardan səmərəli istifadəni zəruri edir. Ona görə də torpaqların məhsuldarlığının yüksəldilməsi, mütərəqqi əkin və suvarma metodlarından istifadə daim diqqət mərkəzində



saxlanılmalıdır.

Ali Məclisin Sədri demişdir: "Muxtar respublikada kənd təsərrüfatının inkişafı üçün lazımi şərait yaradılmışdır. Hazırda muxtar respublikada kənd təsərrüfatı məhsulları istehsalının artırılması və intensiv amillər hesabına məhsuldarlığın yüksəldilməsinə xüsusi diqqət yetirilir. Son illər yeni su anbarlarının tikilməsi, müasir suvarma sistemlərinin qurulması, məhsuldar toxum sortlarının muxtar respublikaya gətirilməsi, əkin sahələrinin genişləndirilməsi, torpaq mülkiyyətçilərinin və fermerlərin hərtərəfli qayğı ilə əhatə olunması əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə səbəb olmuşdur".

Qeyd olunmuşdur ki, 1946-cı ildən fəaliyyət göstərən Kənd Təsərrüfatı Nazirliyi də öz işini muxtar respublikada aqrar sahənin inkişafı istiqamətində qurmuşdur. Bu gün Kənd Təsərrüfatı Nazirliyində və onun struktur qurumlarında çalışanlar üçün lazımi iş şəraiti yaradılmışdır. Nazirliyin tabeliyində Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsi, eləcə də Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyi fəaliyyət göstərir.

Kənd Təsərrüfatı Nazirliyinin qarşısında mühüm vəzifələr durduğunu bildirən Ali Məclisin Sədri demişdir: "Muxtar respublikada torpaqların rayonlaşdırılmasının tətbiqini genişləndirmək, əkin atlaslarına müvafiq olaraq əkinləri təşkil etmək, mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasına, damazlıq işinin inkişafına çalışmaq, mütərəqqi əkin və suvarma metodlarını tətbiq etmək, torpağın münbitliyinin artırılması üçün tədbirlər görmək, gübrələrdən düzgün istifadə edilməsinə nəzarəti təşkil etmək, iqlim və torpaq şəraitinə uyğun olan toxum, eləcə də ənənəvi toxum sortlarının bərpasını təmin etmək, toxum təminatını yaxşılaşdırmaq və bütün bunların son nəticəsi olaraq muxtar respublika əhalisinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə nail olmaq qarşıda duran əsas vəzifələrdir. Yaradılan şərait və göstərilən qayğı qarşıya qoyulan vəzifələrin layiqincə icrasına imkan verəcəkdir".

Ali Məclisin Sədri bu vəzifələrin icrasında kollektivə uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri Kənd Təsərrüfatı Nazirliyinə 1 ədəd "Opel Antara" markalı avtomobilin açarını təqdim etmişdir.

Binanın həyətində də abadlıq işləri aparılmış, müasir işıqlandırma sistemi qurulmuş, gülkarlıqlar salınmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*"Əsrin müqaviləsi" – 20*

# Ulu öndərin neft strategiyası və Azərbaycan

***Ölkəmizin zəngin təbii sərvətlərindən müstəqilliyimizin möhkəmləndirilməsi və iqtisadiyyatımızın inkişafı üçün məqsədyönlü şəkildə istifadə edilməsi ümummilli liderimiz Heydər Əliyevin müstəsna xidmətlərindən biridir. Ulu öndərimizin sayəsində xalqımız öz sərvətlərinin əsl sahibinə çevrilmişdir. Xalqımızın böyük oğlunun müdriklik və uzaqgörənliklə işləyib hazırladığı, dərin inam və qətiyyətlə, məqsədyönlü və ardıcıl şəkildə həyata keçirdiyi neft strategiyası artıq 20 ildir ki, ölkəmizin iqtisadi tərəqqisinə, insanlarımızın rifahına xidmət edir.***

1993-cü ildə Azərbaycanda ikinci dəfə ali hakimiyyətə qayıdan ulu öndərimizin şərəfli missiyasının əsas hədəflərindən biri də o zamana qədərki xaos və anarxiya mühitində məhv olmuş iqtisadiyyatı yenidən canlandırmaq, insanları düçar olduqları maddi çətinliklərdən xilas etmək idi. Bu fəaliyyətin tərkib hissəsi kimi ümummilli liderimizin işləyib hazırladığı neft strategiyası yeni minillik ərəfəsində bütün dünyanın diqqətini Azərbaycana cəlb etmişdi.

1994-cü ilin 20 sentyabrında XX əsrin ən böyük iqtisadi layihələrindən olan, tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adı ilə bütün dünyada məşhurlaşan sazişin imzalanması və onun gerçəkləşməsi Azərbaycanı davamlı inkişaf yoluna çıxarmışdır. Ümummilli liderimizin çox gərgin əməyi sayəsində Bakıda dünyanın 8 ölkəsini təmsil edən yüksək nüfuza malik, neft hasilatı üzrə ixtisaslaşmış 13 iri neft şirkəti arasında "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənilməsini nəzərdə tutan bu irimiqyaslı beynəlxalq müqavilə müasir Azərbaycanın tarixində və taleyində mühüm rol oynamışdır. "Əsrin müqaviləsi"nin imzalanması mərasimində ulu öndər Heydər Əliyev bu tarixi hadisəyə qiymət verərək demişdir: ***"Mən bu müqavilənin hazırlanmasında, imzalanmasında iştirak etdiyimə görə özümü çox xoşbəxt hesab edirəm. Üzərimə götürdüyüm məsuliyyəti dərk edirəm və ümidvaram ki, gələcək nəsillər bu gün burada baş verən tarixi hadisəni layiqincə qiymətləndirəcəklər".***

Azərbaycanda neft hasilatı 150 illik tarixə malik olsa da, xalqımız yalnız XX əsrin sonlarında, müstəqillik qazandıqdan sonra bu sərvətdən bəhrələnmək imkanı qazanmışdır. Bu imkanı reallığa çevirən isə ulu Heydər Əliyev dühasıdır. Hələ sovet dönəmində Azərbaycana rəhbər təyin olunduğu ilk günlərdən başlayaraq neft sənayesinin inkişafına xüsusi diqqət göstərən uzaqgörən siyasi lider respublikamızda nəhəng neft infrastrukturu formalaşdırmaqla gələcək neft strategiyasının əsasını qoymuşdur. Buna görədir ki, XX əsrin 70-80-ci illəri Azərbaycan neft sənayesinin sürətli inkişaf dövrü kimi tarixə düşmüşdür. Həmin illərdə dəniz yataqlarının işlənilməsi üçün qazma qurğuları, suda tikinti işlərini aparmaq üçün xüsusi gəmilər, texnika və avadanlıq alınmış, Bakı Dərin Dəniz Özülləri Zavodu kimi nəhəng strateji istehsalat qurğusu tikilmişdir. Bununla yanaşı, neft emalı, neft-kimya sənayesi və neft maşınqayırmasının inkişafında böyük irəliləyişlər olmuşdur.

Xəzərdə planlı surətdə geoloji-kəşfiyyat işlərinin təşkili və həyata keçirilməsi də ulu öndərin misilsiz tarixi xidmətlərindəndir. Bu gün qətiyyətlə demək olar ki, həmin illərdə iqtisadiyyatın bütün sahələrində olduğu kimi, neft sənayesində də ümummilli liderimizin gördüyü işlər onun gələcəyə hesablanmış planlarının – Azərbaycanı müstəqil dövlətçiliyə, iqtisadiyyatımızı qlobal layihələrə və xalqımızı rifaha doğru aparmaq niyyətinin əsasını təşkil edirdi.

Məhz həmin dövrdə böyük uzaqgörənliklə yaradılan neft infrastrukturu, kəşf edilən yataqlar 20-25 il sonra müstəqil Azərbaycanın gələcəyi üçün əvəzsiz əhəmiyyəti olan neft müqavilələrinin imzalanmasında baza rolunu oynadı. Eyni zamanda danılmaz həqiqətdir ki, yenicə müstəqillik əldə etmiş, iqtisadiyyatı böhran içində olan, müharibə şəraitində yaşayan bir ölkənin aparıcı dövlətlərin diqqətini belə bir nəhəng layihəyə cəlb edə bilməsi beynəlxalq aləmdə Heydər Əliyev şəxsiyyətinə böyük hörmətin və dahi şəxsiyyətin parlaq diplomatiyasının nəticəsi idi.

"Əsrin müqaviləsi"nin imzalanmasına qədər uzun sürən danışıqların müvəffəqiyyətlə yekunlaşmasında hörmətli İlham Əliyevin misilsiz xidmətləri xüsusilə qeyd edilməlidir. Həmin dövrdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti kimi Vaşinqton, Nyu-York, Hyuston, Dallas, İstanbul və digər şəhərlərdə iri neft şirkətlərinin rəhbərləri ilə səmərəli görüşlər keçirən və danışıqlar aparan cənab İlham Əliyev xalqımızın milli maraqlarını tam təmin edən müqavilə şərtlərinin əldə edilməsi üçün gərgin əmək sərf etmişdir.

Cənab İlham Əliyev Azərbaycanda həyata keçirilən enerji layihələrinin ölkəmizin gələcək inkişafındakı rolunu belə qiymətləndirmişdir: ***"Sazişlərin həyata keçirildiyi dövrdə neft sənayesinin infrastrukturu xeyli dərəcədə təzələnəcək və neft sənayemizin yeni, güclü infrastrukturu yaranacaqdır. Ölkə iqtisadiyyatının digər sahələrinə sərmayələr axını təmin ediləcəkdir. Azərbaycan yeni, müasir texnologiyalar əldə edəcəkdir. Xarici şirkətlərin ödədiyi vergilərdən büdcəyə mədaxil xeyli artacaqdır. Müxtəlif sənaye və xidmət sahələrində minlərlə yeni iş yeri açılacaqdır. Azərbaycan neft satışından milyardlarla dollar götürəcəkdir ki, bu da geniş sosial proqramları həyata keçirməyə, əməkhaqqını və pensiyaları artırmağa, imkansız ailələrə, müharibə əlillərinə və qaçqınlara daha da çox kömək etməyə imkan verəcəkdir. Nəticədə, güclü iqtisadi potensial yaradılacaq və bu da ölkənin müstəqilliyini bundan sonra da qoruyub möhkəmlətməyə imkan verəcəkdir".***

Azərbaycan neftinin dünya bazarına səmərəli nəqli məsələsi neft strategiyasının ən vacib istiqamətlərindən birini təşkil edir. Bu sahədə Azərbaycanın mənafelərinin uzunmüddətli şəkildə qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədilə əlverişli marşrutun seçilməsi ümummilli liderimizin misilsiz xidmətləri sırasındadır. Enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirilən beynəlxalq layihələrin tərkib hissəsi kimi neft və qaz kəmərlərinin yeni regional sisteminin yaradılması və istismarında Azərbaycanın aparıcı mövqeyinin təmin edilməsi Heydər Əliyev strateji xəttinin uğurudur.

Ulu öndərimizin qətiyyəti və cəsarətli siyasəti sayəsində çox böyük maneələrə baxmayaraq, 2002-ci il sentyabrın 18-də Bakıda Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin, ABŞ-ın energetika nazirinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməli qoyulmuşdur. Təxminən, üç il sonra, 2005-ci ilin mayında kəmərin Azərbaycan ərazisindən keçən hissəsinin istifadəyə verilməsi mərasimi keçirilmiş və boru xəttinə ilk neft vurulmuşdur. Həmin ilin oktyabrında isə kəmərin Gürcüstan hissəsi istifadəyə verilmişdir. 2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatmış və iyulun 4-də neftlə yüklənmiş ilk tanker buradan yola salınmışdır.

"Üç dəniz əfsanəsi" adlandırılan, strateji əhəmiyyəti ilə seçilən Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin əfsanədən gerçəkliyə çevrilməsi ötən qısa zaman kəsiyində Azərbaycana çox böyük siyasi və iqtisadi qazanclar gətirmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Hər bir dövlətin müstəqilliyinin dayanıqlı olması onun iqtisadi potensialından da asılıdır. Azərbaycanın tam müstəqil dövlət olması üçün onun iqtisadi inkişafının da əsaslarını hazırlayan ulu öndərimiz qısa müddətdə islahatların aparılmasına nail olmuş, davamlı inkişaf üçün böyük maliyyə imkanları yaradan neft strategiyasını işləyib hazırlamış, Azərbaycan regionda həyata keçirilən qlobal layihələrin təşəbbüsçüsü və fəal iştirakçısı rolunu oynamağa başlamışdır. O zaman nəhəng neft-qaz layihələrinin əfsanədən reallığa çevrilməsi müstəqil Azərbaycanın gələcəyi, Azərbaycan xalqının xoşbəxtliyi uğrunda atılmış addım kimi tarixə düşmüşdür".***

Azərbaycanın milli sərvətlərinin, o cümlədən neftin ölkənin hər bir vətəndaşına, eləcə də gələcək nəsillərə xidmət etməsinin vacibliyi ümummilli liderimiz tərəfindən dəfələrlə vurğulanmış və bunu təmin edəcək mexanizmin formalaşdırılması üçün 1999-cu il dekabrın 29-da "Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında" Fərman imzalanmışdır. Dövlət Neft Fondunun yaradılması və fəaliyyətə başlaması ulu öndərimizin Azərbaycanın siyasi və iqtisadi müstəqilliyinin möhkəmləndirilməsinə verdiyi ən qiymətli töhfələrdən biridir. Dövlət Neft Fondunun aktivlərinin hazırda 36 milyard dolları ötməsi həmin tarixi qərarın nə qədər böyük əhəmiyyətə malik olduğunu təsdiq edir. Dünya Bankının proqnozlarına görə, yaxın 5 ildə fondun aktivləri 50, sonrakı 15 ildə isə 100 milyard dolları ötəcəkdir.

1994-cü ildə bağlanmış müqavilələr Azərbaycana onun neft şöhrətini yenidən qaytarmışdır. "Əsrin müqaviləsi" ölkədə digər irimiqyaslı layihələrin həyata keçirilməsi üçün zəmin yaratmışdır. Bu layihələrin gerçəkləşdirilməsi ilə Azərbaycan dünyada özünə daha etibarlı tərəfdaşlar və müttəfiqlər tapmış, iqtisadiyyatın bütün sahələrinə xarici investisiyaların sürətli axını başlanmışdır. Müqavilənin imzalanmasından ötən 20 il ərzində ölkənin təkcə neft və qaz sektoruna xarici şirkətlər tərəfindən 50 milyard ABŞ dollarına yaxın investisiya qoyulmuşdur.

Bu gün böyük enerji ixracatçısına çevrilmiş Azərbaycanda hasil olunan karbohidrogen ehtiyatları neft-qaz boru kəmərləri, terminallar və dəmir yolu vasitəsilə Avropa və dünya bazarlarına çatdırılır. Dünyada gedən iqtisadi proseslərin, nəhəng enerji layihələrinin fəal iştirakçısına və mərkəzinə çevrilmiş Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası ilbəil daha da sürətlənir, ölkəmiz dünyanın enerji təhlükəsizliyinə mühüm töhfələr verməkdə davam edir. Neft sektorunda səmərəli beynəlxalq iqtisadi əməkdaşlıq nəticəsində ölkəmiz neft-qaz ixracatçısı kimi Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində fəal subyektə və etibarlı tərəfdaşa çevrilmişdir.

Neft gəlirlərinin artması ölkəmizin böyük həcmdə kapital resurslarına malik olmasına və dünyada nüfuzlu investor kimi fəaliyyətinə də imkan vermişdir. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin xaricdə fəaliyyətinin genişlənməsi, bir çox ölkələrin iqtisadiyyatına investisiya qoyuluşlarını həyata keçirməsi, beynəlxalq layihələrin maliyyələşdirilməsində əhəmiyyətli paya sahib olması ölkəmizin neft strategiyasının keyfiyyətcə yeni mərhələyə yüksəlməsindən xəbər verir.

Azərbaycanın geosiyasi mövqeyi ilə bağlı tranzit imkanlarının genişləndirilməsi, beynəlxalq neft-qaz kəmərlərinin yeni şəbəkəsinin formalaşmasında fəal iştirakının təmin edilməsi iqtisadiyyatımızın gələcək inkişafı üçün çox mühüm əhəmiyyətə malikdir. Son illərdə öz geosiyasi və iqtisadi əhəmiyyəti ilə seçilən TANAP, TAP kimi iri transmilli layihələrin reallaşdırılmasında ölkəmizin söz sahibinə çevrilməsi və əhəmiyyətli paya malik olması, "XXI əsrin layihəsi" hesab edilən "Şahdəniz-2" layihəsi üzrə yekun investisiya qərarının imzalanması da əsası "Əsrin müqaviləsi" ilə qoyulan böyük neft strategiyasının məntiqi davamıdır. Bu layihələr bir tərəfdən Azərbaycanın vacib iqtisadi və enerji tərəfdaşı kimi dünyada mövqelərini möhkəmləndirirsə, digər tərəfdən gələcəkdə qaz ixracı hesabına da böyük gəlirlər əldə edəcəyinə təminat verir.

Ötən illərdə artan neft gəlirləri əsasında yaradılmış möhkəm maliyyə-iqtisadi baza qeyri-neft sektorunun da dinamik inkişafına təkan vermişdir. İqtisadiyyatın şaxələndirilməsi, regionların tarazlı inkişafı, insan kapitalının formalaşdırılması sahəsində görülmüş işlər nəticəsində milli iqtisadiyyatın yeni, səmərəli strukturu formalaşmış, əhalinin həyat səviyyəsi və keyfiyyəti davamlı olaraq yüksəlmişdir.

*Ardı 3-cü səhifədə*

Əsaslı yüksəliş və tərəqqi dövrü kimi xarakterizə olunan son 10 ildə isə Azərbaycan iqtisadiyyatının həcmi üç dəfədən çox artmışdır ki, bu da dünyada analoqu olmayan bir göstəricidir. Sosial-iqtisadi inkişafa mühüm təsir göstərən məşğulluq probleminin həlli istiqamətində ölkəmizdə böyük uğurlar əldə edilmişdir. Ötən on il ərzində Azərbaycanda bir milyondan çox yeni iş yerləri açılmışdır ki, bunun da əksəriyyəti daimi iş yerləridir. Artıq ölkəmizin tarazlı inkişafı təmin edilmişdir. Yeni iş yerlərinin əksər hissəsinin regionlarda yaradılması da bu faktı təsdiqləyir.

Son illərdə ölkəmizin bütün ərazilərində genişlənməkdə olan quruculuq prosesi Naxçıvan Muxtar Respublikasında da özünü qabarıq şəkildə göstərir. Muxtar respublikada aparılan ardıcıl və sistemli islahatlar nəticəsində 1995-ci illə müqayisədə Ümumi Daxili Məhsul istehsalı 54 dəfə, sənaye məhsulu 95 dəfə, kənd təsərrüfatı istehsalı 9 dəfə, investisiyalar 340 dəfə artmışdır. İstehsal imkanlarının davamlı olaraq artırılması hesabına hazırda muxtar respublikada 349 növdə məhsul istehsal olunur və 334 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Tələbatdan artıq istehsal edilən məhsullar hesabına ixrac potensialımız yüksəlmiş, xarici ticarət dövriyyəsi 1995-ci illə müqayisədə 27 dəfə artmışdır.

Muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının icrası da davamlı inkişafla nəticələnmiş, iqtisadi fəallıq artmış, sahibkarlar üçün əlverişli biznes mühiti formalaşdırılmış, yeni müəssisələr yaradılmış, məşğulluq səviyyəsi yüksəlmişdir. Muxtar respublikanın ən ucqar yaşayış məntəqələrində belə, sosial obyektlərin inşası, nəqliyyat-kommunikasiya infrastrukturunun yeniləşməsi, sosial məsələlərin həlli, yeni texnologiyaların tətbiqi insanların rifahını yüksəltmişdir.

Artıq muxtar respublikanın enerji təhlükəsizliyi tam təmin olunmuşdur. Enerji təchizatı sistemində aparılan işlər və yeni elektrik stansiyalarının qurulması hesabına muxtar respublika öz tələbatını daha səmərəli mənbələr hesabına ödəməklə yanaşı, enerji ixrac etmək qabiliyyətini də ilbəil artırmaqdadır. Muxtar respublikanın bütün yaşayış məntəqələrinin tam şəkildə elektrik enerjisi və təbii qazla etibarlı şəkildə təmin edilməsi “Əsrin müqaviləsi”ndən başlanan quruculuq və inkişaf yolunun bəhrələridir.

Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Hesab edirəm ki, bu gün Naxçıvanın gələcək inkişafı ilə bağlı əlavə sözlərə ehtiyac yoxdur. Çünki bütün işlər burada ən yüksək səviyyədə görülübdür. …Bundan sonra ancaq bu uğurlara yeni uğurlar əlavə etmək lazımdır. Bundan sonra Azərbaycanın, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın uğurlu, dinamik inkişafı təmin ediləcəkdir”.***

Muxtar respublikamızda iqtisadi sahədə qazanılan uğurlar sosial və mədəni yüksəlişə də yol açmış, insan kapitalının inkişafı, mədəni-intellektual potensialın güclənməsi, mənəvi dəyərlərin qorunması və təbliği, elm, mədəniyyət, incəsənət, idman, sağlamlıq və digər sahələrdə mühüm nailiyyətlər qazanılmışdır. İqtisadiyyatın məqsədli dövlət proqramları əsasında inkişafı, davamlı iqtisadi artım, sürətli sənayeləşdirmə, kompleks quruculuq, mövcud potensialdan səmərəli istifadə, insan amilinə diqqət muxtar respublikanın müasir iqtisadi mənzərəsinə xas olan əsas cəhətlərdir.

*Reallıq bundan ibarətdir ki, ötən dövr ərzində uğurla həyata keçirilən milli neft siyasəti hələ uzun illər bundan sonra da dövlətimizin güclənməsinə, xalqımızın rifahına və mədəni intibaha xidmət edəcək, sabitlik və inkişaf təmin olunacaqdır. Ölkə başçısının qətiyyətlə dediyi aşağıdakı fikirlər hər bir vətəndaşın ölkəmizin gələcəyinə olan inamını daha da möhkəmləndirir:* ***“Əminəm ki, neft Azərbaycana sülh, sabitlik gətirəcək, regionda əməkdaşlığın daha da genişlənməsinə yaxşı şərait yaradacaq, Azərbaycan siyasi, iqtisadi cəhətdən güclü dövlətə çevriləcək, onun regiondakı, beynəlxalq münasibətlərdəki mövqeləri daha da güclənəcək, dostlarımız ilə tərəfdaşlıq əlaqələrimiz daha da möhkəmlənəcəkdir”.***

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatı***

## Multikulturalizm və Dini Məsələlər üzrə komissiyaların fəaliyyətinə həsr olunmuş müşavirə keçirilmişdir

*Sentyabrın 19-da Naxçıvan Şəhər İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası, eləcə də şəhər və rayon icra hakimiyyətləri üzrə Multikulturalizm və Dini Məsələlər üzrə komissiyaların fəaliyyətinə həsr olunmuş müşavirə keçirilmişdir.*



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək diqqətə çatdırmışdır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında multikulturalizm və dini məsələlər üzrə komissiyaların yaradılması haqqında” 2014-cü il 20 avqust tarixli Sərəncamına əsasən, Naxçıvan Muxtar Respublikası, eləcə də şəhər və rayon icra hakimiyyətləri üzrə Multikulturalizm və Dini Məsələlər üzrə komissiyalar yaradılmışdır.

Rəhman Məmmədov Naxçıvan Muxtar Respublikası, eləcə də şəhər və rayon icra hakimiyyətləri üzrə Multikulturalizm və Dini Məsələlər üzrə komissiyaların tərkibi barədə müşavirə iştirakçılarını məlumatlandırmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini, Naxçıvan Muxtar Respublikası Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyanın sədri Mirhəşim Seyidov çıxış edərək demişdir ki, komissiyaların yaradılmasında məqsəd Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının dini qurumlarla qarşılıqlı fəaliyyətinin təşkil edilməsi, multikulturalizm və dövlət-din münasibətlərinin daha dolğun tənzimlənməsindən ibarətdir.

Mirhəşim Seyidov xatırlatmışdır ki, “XXI əsr: ümidlər və çağırışlar” devizi ilə 2011-ci il oktyabrın 10-da keçirilən Beynəlxalq Humanitar Forumda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxışında multikulturalizmlə bağlı demişdir: ***“Multikulturalizmin dəyərləri, onun əsasları möhkəmləndirilməlidir. Multikulturalizm başqa xalqın nümayəndəsinə hörmət, başqa dinə hörmətdir. Öz dininə hörmət başqa dinə hörmətdən başlayır. Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə, bütün xalqları birləşdirir”.***

“Qeyd olunanları nəzərə alaraq Multikulturalizm və Dini Məsələlər üzrə komissiyaların üzərinə Naxçıvan Muxtar Respublikasında həm multikulturalizm, həm də dini məsələlərin tənzimlənməsi baxımından mühüm vəzifələr düşür. Bu vəzifələri icra etmək üçün komissiyalar müvafiq iş planı hazırlamalı, iş planları icra edilməlidir”, – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini bildirmişdir ki, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olaraq, dini etiqad azadlığının həyata keçirilməsi üçün təminatlar yaradılmış, hər kəsin dini qurum və icmalarda etiqad hüququ təmin olunmuşdur. Komissiya yerlərdə din-dövlət münasibətlərinin hüquqi əsaslarını, “Dini etiqad azadlığı haqqında” qanunvericiliyin düzgün mənimsənilməsi və tətbiqini müntəzəm nəzarətdə saxlamalıdır.

Bildirilmişdir ki, bu gün muxtar respublikamızda dini etiqad azadlığından və multikulturalist mühitdən sui-istifadə halları yoxdur. Amma bu, o demək deyil ki, bu sahədə iş aparılmamalıdır. Əksinə, komissiya bu sahəyə xüsusi nəzarət etməli, qeyri-ənənəvi dini cərəyanlara və təriqətlərə qarşı müvafiq tədbirlər görməlidir.

Müasir gəncliyin milli-mənəvi dəyərlərə, adət-ənənələrə sadiq qalmaq şərti ilə ümumbəşəri dəyərləri və tələbləri dərk edən şəxsiyyət kimi tərbiyə olunmasının multikulturalizmin formalaşması baxımından əhəmiyyətini vurğulayan Mirhəşim Seyidov komissiyaların gənc və yeniyetmələrin vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində təhsil müəssisələrində müvafiq tədbirlər keçirməli olduqlarını nəzərə çatdırmışdır.

Qeyd olunmuşdur ki, din də multikulturalizmin mühüm elementlərindən biri kimi çıxış edir. Dinin düzgün istiqamətdə təbliğinə xüsusi diqqət yetirilməli, dini məsələlərlə bağlı tədbirlər keçirilməlidir. Dini bayramların, ayinlərin və yas mərasimlərinin milli-mənəvi dəyərlərimizə və adət-ənənələrimizə uyğun şəkildə keçirilməsi təmin olunmalıdır. Dini mərasimlərdə oxunan ayə və duaların bəzən Azərbaycan dilində izahı verilmir. Ona görə də mərasimdə olanlar oxunanların mənasını anlamırlar. Komissiya belə halların qarşısını almalı və çalışmalıdır ki, dini mərasimlərdə oxunan “Quran” ayələrinin və duaların Azərbaycan dilində də izahı verilsin. Dini mərasimlər maarifləndirici xarakter almalıdır. İnsanlarda bədbinlik əhval-ruhiyyəsi yaradan mövzularda yox, vətənpərvərlik, qəhrəmanlıq mövzusunda söhbətlər aparılmalıdır.

Hazırda muxtar respublikada 209 məscid fəaliyyət göstərir ki, bunun da 72-si ölkəmiz müstəqillik qazandıqdan ötən dövr ərzində tikilmiş, 95 məscid və 23 pir isə yenidən qurulmuş və ya bərpa olunmuşdur. Komissiya muxtar respublikada mövcud olan məscidlərin qorunmasına, onların binalarının yaxşı saxlanılmasına xüsusi nəzarət etməli, bu məqsədlə iş planına uyğun olaraq yoxlamalar təşkil etməlidir.

Muxtar respublikada məscidlərin və din xadimlərinin qeydiyyatı davam etdirilir. Qeydiyyatdan keçmiş 638 din xadiminə vahid geyim forması verilmişdir. Dini mərasimləri idarə edənlərin attestasiyadan keçirilməsi və xüsusi geyim forması ilə təminatı, eləcə də mərasimlərdə bu geyim formasına əməl olunması komissiyanın nəzarətində olmalıdır. Din xadimlərinin biliklərinin artırılması xüsusilə diqqətdə saxlanılmalı, onlar müvafiq kurslara cəlb edilməlidir.

Qeyd olunmuşdur ki, komissiyalar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi və Ağsaqqallar Şurası ilə birlikdə təkcə rayon mərkəzlərində deyil, eləcə də yeni tikilmiş kənd mərkəzlərində də müvafiq maarifləndirici söhbətlərin aparılmasını təmin etməlidirlər.

Komissiyaların multikulturalizmin və dini məsələlərin düzgün təbliği istiqamətində mətbuatda maarifləndirici məqalələrlə çıxış etməsinin, eləcə də televiziyada bu mövzuda verilişlərin təşkilinin vacibliyini bildirən Mirhəşim Seyidov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə yaradılmış komissiyaların üzvlərinə qarşıya qoyulan vəzifələrin icrasında uğurlar arzulamışdır.

**Rauf ƏLİYEV**

## “Əsrin müqaviləsi” Azərbaycanın dinamik inkişafının əsasıdır” mövzusunda elmi konfrans

***Sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Naxçıvan Bölməsinin, Naxçıvan Dövlət Universitetinin, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin birgə təşkilatçılığı ilə “Əsrin müqaviləsi”nin imzalanmasının 20 illiyinə həsr olunmuş “Əsrin müqaviləsi” Azərbaycanın dinamik inkişafının əsasıdır” mövzusunda elmi konfrans keçirilmişdir.***



Elmi konfransı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bildirmişdir ki, Azərbaycan əsrlər boyu özünün zəngin karbohidrogen ehtiyatları ilə diqqəti cəlb etmişdir. Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə neft gəlirlərinin Azərbaycanın inkişafına yönəldilməsi üçün təməl işlər görülmüş və ulu öndərin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra neft strategiyası ölkəmizin gələcəyini müəyyən edən əsas istiqamətə çevrilmişdir. Vurğulanmışdır ki, məhz 1994-cü il sentyabr ayının 20-də “Əsrin müqaviləsi”nin imzalanması ilə başlanmış iş XXI əsrdə Azərbaycanın dinamik inkişaf yolunu müəyyən etmişdir.

Elmi konfransda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iqtisadi məsələlər üzrə müşaviri, iqtisad üzrə fəlsəfə doktoru Müslüm Cabbarzadə “İqtisadi tərəqqiyə və sosial rifaha xidmət strategiyası” mövzusunda geniş məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, XX əsrin 90-cı illərində bazar münasibətlərinə keçidi şərtləndirən iqtisadi, siyasi, hüquqi islahatların gerçəkləşdirilməsi ilə yanaşı, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, habelə Xəzərin karbohidrogen ehtiyatlarından məqsədyönlü istifadə edilməsi nəticəsində ölkəmiz tədricən ümummilli böhranı aradan qaldırmağa, sabit inkişaf yoluna qədəm qoymağa müvəffəq ola bilmişdir. Ulu öndər Heydər Əliyevin enerji siyasəti Azərbaycanın beynəlxalq nüfuzunu artırmaqla yanaşı, onun geosiyasi və geoiqtisadi mövqelərini daha da möhkəmləndirmiş, dövlətimizi dünyada sabit enerji təminatçısı kimi tanıtmışdır.

Vurğulanmışdır ki, “Əsrin müqaviləsi” Azərbaycanın müstəqil dövlət kimi öz sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını müdafiə etmək əzmində olduğunu təsdiqləyən tarixi sənəddir. Bu müqavilə ilə əsası qoyulan neft strategiyası Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu xeyli yüksəltmişdir. Neftin dünya bazarına çıxarılması üçün əlverişli marşrutun seçilməsi də ümummilli liderimizin gərgin əməyi sayəsində reallaşmışdır. Ulu öndər Heydər Əliyevin dühasının məhsulu olan uğurlu neft strategiyasının həyata keçirilməsi nəticəsində artan neft gəlirləri əsasında yaradılmış möhkəm maliyyə-iqtisadi baza qeyri-neft sektorunun dinamik inkişafına da təkan vermişdir. Bu gün Azərbaycanın enerji siyasəti regional müstəvidən çıxaraq qlobal müstəviyə yüksəlmişdir. Azərbaycan neft-qaz ixrac edən ölkə kimi dünya birliyi üçün etibarlı tərəfdaşa, enerji təhlükəsizliyi məsələlərində isə fəal subyektə çevrilmişdir.

Ümummilli liderin neft strategiyasının ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmiz zaman keçdikcə güclənir, iqtisadi cəhətdən inkişaf edir, xalqın rifah halı yaxşılaşdırılır, neftdən əldə olunan gəlir qeyri-neft sektorunun inkişafına yönəldilir.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasında da həyata keçirilən ardıcıl islahatlar nəticəsində iqtisadi və sosial sahələrdə baş verən dəyişiklikləri xarakterizə edən makroiqtisadi göstəricilər davamlı olaraq yüksəlmişdir. Son illər muxtar respublikada müasir infrastruktur qurulmuş, yeni müəssisələr yaradılmış, iş yerləri açılmış, ümumilikdə, regionun iqtisadi potensialı gücləndirilmiş, quruculuq işləri daha da sürətlənmişdir. Blokada şəraitində yaşayan muxtar respublikanın ən ucqar dağ və sərhəd kəndlərinin belə, fasiləsiz təbii qaz və elektrik enerjisi ilə təmin olunması əsası “Əsrin müqaviləsi” ilə qoyulan davamlı inkişaf yolunun nəticələridir.

Elmi konfransda AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli “Ulu öndər Heydər Əliyev milli neft strategiyasının banisidir”, bölmənin Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əliəddin Abbasov “Əsrin müqaviləsi”: reallığa çevrilən əfsanə”, Naxçıvan Dövlət Universitetinin professoru, iqtisad elmləri doktoru Nazim Əhmədov “Əsrin müqaviləsi” Azərbaycanın iqtisadi inkişafının təminatçısıdır”, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi Aparatının rəhbəri Anar Əhmədov “Azərbaycan iqtisadiyyatının dinamik inkişafının zəmanəti” mövzularında məruzələr etmişlər.

Konfransa AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurmuşdur.

**E.KƏLBİZADƏ**

**Ümummilli lider Heydər ƏLİYEV:** *Azərbaycanın dövlət müstəqilliyini qoruyan dövlət atributlarından hər biri bizim üçün əhəmiyyətlidir. Bunların içərisində Milli Təhlükəsizlik Nazirliyi isə xüsusi yer tutur.*

# Muxtar respublikada milli təhlükəsizlik orqanlarının hərtərəfli fəaliyyəti təmin olunmuşdur

Bu gün Azərbaycan sabit iqtisadiyyata və mühüm geostrateji mövqeyə malik olan, enerji təhlükəsizliyinin təminatında getdikcə vacib rol oynayan dövlətə çevrilmişdir. Bölgəyə iqtisadi, siyasi maraq göstərən dünya dövlətləri, beynəlxalq təşkilatlar, ilk növbədə, Azərbaycanın mövqeyini nəzərə alır, onunla hesablaşırlar. Odur ki, indiki mərhələdə təhlükəsizlik məsələləri ölkəmiz üçün daha mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin dediyi kimi: ***"Ölkəmizin normal, hərtərəfli inkişafı üçün, Azərbaycan xalqının rifah, sülh şəraitində yaşaması üçün sabitlik, ictimai-siyasi asayiş qorunmalıdır, təhlükəsizliyimiz təmin olunmalıdır. Bu işdə Milli Təhlükəsizlik Nazirliyinin xüsusi funksiyası var, xüsusi rolu var".***

Ölkəmizdə milli təhlükəsizlik orqanlarının fəaliyyətinin təşkili və xidmətin xalqımızın milli maraqlarına uyğun qurulması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər istər ötən əsrin 50-60-cı illərində bu sistemdə çalışdığı və sonradan ona rəhbərlik etdiyi dövrlərdə, istərsə də 70-ci illərdən başlayaraq ölkəmizə rəhbərliyi dövründə təhlükəsizlik orqanlarının fəaliyyətinin xalqımızın mənafeyinə uyğun qurulmasını təmin etmiş, şəxsi heyətin Azərbaycana sədaqətlə xidmət edən kadrlarla komplektləşdirilməsinə nail olunmuşdur.

Müstəqilliyin ilk illərində ölkəmizdə baş verən anarxiya, Ermənistanın işğalçılıq siyasəti və səriştəsiz şəxslərin ölkəyə rəhbərliyi Azərbaycanın milli təhlükəsizliyinə qarşı ciddi təhdidlər yaratmışdı. Xalqın mənəvi sıxıntı məngənəsində boğulduğu, iqtisadi, siyasi, sosial, hərbi və mənəvi böhran içərisində yaşadığı bir vaxtda ulu öndər Heydər Əliyevin Naxçıvana qayıtması muxtar respublika əhalisində böyük ruh yüksəkliyi, gələcəyə inam oyatmışdı. Ermənistan tərəfindən hərbi-iqtisadi blokadaya alınmış muxtar respublikanın düşmən əlinə keçməməsi, siyasi və iqtisadi böhrandan çıxarılması yalnız xalqımızın böyük oğlunun misilsiz və fədakar fəaliyyəti sayəsində mümkün olmuşdur.

Ulu öndər böyük siyasətçi kimi bu regionun hansı mürəkkəb geosiyasi və coğrafi şəraitdə yerləşdiyini, ermənilərin tarixən bu qədim Azərbaycan torpağını ələ keçirmək üçün hansı fitnələrə əl atdığını yaxşı bilirdi. Buna görə də dahi şəxsiyyət muxtar respublikanın təkcə sosial-iqtisadi cəhətdən inkişafını deyil, həm də hərbi-siyasi cəhətdən möhkəmlənməsini ön plana çəkmiş, muxtar respublikanın təhlükəsizlik və müdafiə problemlərinin həllinin vacibliyini nəzərə alaraq xüsusi xidmət orqanlarında təxirəsalınmaz islahatlar həyata keçirmişdir. Məhz bu səbəbdən 1992-ci il sentyabrın 20-də ulu öndərin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali





Məclisinin sessiyasında Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin yaradılması haqqında qərar qəbul edilmişdir.

Şübhəsiz ki, Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyi SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin tabeliyində olmuş Naxçıvan MR DTK bazasında yaradılmışdı. Ona görə də, ilk növbədə, bu qurumun qarşısında duran vəzifələrin məzmunu və mahiyyəti də dəyişməli idi. Əgər muxtar respublika Dövlət Təhlükəsizlik Komitəsinin bütün imkanları və potensialı, ümumilikdə, sovet imperiyasının mövcudluğunun və strateji maraqlarının təminatına yönəlmişdisə, Milli Təhlükəsizlik Nazirliyinin qarşısında duran başlıca vəzifə muxtar respublika ərazisində Azərbaycan Respublikasının suverenliyinə, konstitusiya quruluşuna, iqtisadi, müdafiə və elmi-texniki potensialına qarşı olan təhdidlərin, xarici dövlətlərin xüsusi xidmət orqanlarının və təşkilatlarının, cinayətkar qrupların və ayrı-ayrı şəxslərin kəşfiyyat və digər təxribat-pozuculuq fəaliyyətlərinin qarşısının alınması, həmçinin dövlət sirri təşkil edən məlumatların qorunması və terrorizmlə mübarizə idi. Başqa sözlə desək, nazirliyin ən ümdə və təxirəsalınmaz vəzifəsi xalqımızın mənafelərini, milli maraqlarını, eləcə də dövlətçiliyimizi müdafiə və mühafizə etməkdi.

Bu gün fəaliyyətini dövlət müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunması kimi ali məqsədlər naminə səfərbər etmiş Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyi keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. İndi nazirlik yalnız keçmişin mütərəqqi ənənələrinin və müasir dövlətimizin təhlükəsizliyinin keşiyində dayanmır, həm də sabahın, gələcəyin təminatçısı funksiyasını ləyaqətlə yerinə yetirir. Əməliyyat fəaliyyətinin bütün aparıcı istiqamətlərində həyata keçirilən tədbirlər nəticəsində cəmiyyətimizin təhlükəsizliyinə və milli maraqlarımıza qarşı yönəlmiş cinayətkar əməllərin vaxtında aşkarlanması və qarşısının alınması istiqamətində uğurlu nəticələr əldə olunmuşdur. Həyata keçirilmiş əks-kəşfiyyat və əməliyyat-axtarış tədbirləri nəticəsində muxtar respublikada casusluq yolu ilə hərbi, iqtisadi və digər sahələrə dair məlumatlar toplamağa çalışaraq Azərbaycan Respublikasının maraqlarına qarşı yönəlmiş fəaliyyətlərin qarşısı alınmışdır. Muxtar respublika ərazisində narkotiklərin qanunsuz dövriyyəsi, qeyri-leqal miqrasiya, qanunsuz odlu silah əldə edilməsi, eləcə də mütəşəkkil cinayətkarlığın digər növləri ilə mübarizə sahəsində də uğurlar qazanılmışdır. Cari ilin birinci yarımili ərzində ayrı-ayrı şəxslər və qabaqcadan əlbir olmuş qruplar tərəfindən qonşu ölkələrdə qanunsuz əldə olunmuş külli miqdarda narkotik vasitələrin qaçaqmalçılıq yolu ilə muxtar respublika ərazisinə gətirilməsinin qarşısı alınmış, ümumilikdə, 8 nəfər maddi sübutlarla birlikdə saxlanılmışdır.

Hazırda nazirlik öz işini Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin hüquq-mühafizə orqanları qarşısında vəzifə kimi qoyduğu ümumprofilaktik və qabaqlayıcı tədbirlərin keçirilməsi istiqamətində qurmuşdur. Cəmiyyətin mənəvi saflaşması, vətəndaşların və xüsusən gənclərin sağlam vətənpərvərlik ruhunda yetişməsi üçün mütəmadi olaraq maarifləndirmə tədbirləri həyata keçirilməkdədir. Bununla əlaqədar nazirlik və onun ərazi strukturları tərəfindən vətəndaşların qəbulu və gənclərlə görüşlər təşkil edilir, ölkə vətəndaşlarını aldadıcı vədlərlə qanunazidd və cinayətkar əməllərə cəlb etməyə çalışan müxtəlif mərkəzlər, eləcə də son dövrlərdə beynəlxalq aləmi təhdid edən qeyri-ənənəvi ekstremist təmayüllü təhlükələr haqqında geniş məlumatlar verilir. "Öncə vətəndir" devizi ilə muxtar respublikada yerləşən ali təhsil ocaqlarında təşkil olunmuş tədbirlərdə isə gənclərə ölkəmizin milli maraqları və onun müdafiəsi haqqında geniş məlumatlar çatdırılır.

Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyi xüsusi xidmət orqanlarına xas spesifik kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətindən başqa, dövlət sirri təşkil edən məlumatların qorunması istiqamətində üzərinə qoyulan vəzifələri layiqincə yerinə yetirir. Qədim diyarın ictimai-siyasi sabitlik şəraitində inkişafında, ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizənin daha səmərəli təşkilində, ən başlıcası, vətəndaşların təhlükəsiz yaşamaq kimi fundamental hüququnun təminatında digər dövlət qurumları ilə qarşılıqlı əlaqəli şəkildə fəaliyyət göstərilir.

Qazanılan bu uğurlara maddi-texniki bazanın gücləndirilməsi və əməkdaşların iş şəraitinin yaxşılaşdırılması nəticəsində nail olunmuşdur. Son illər milli maraq və təhlükəsizliyin müasir səviyyədə təminatı üçün nazirliyin fəaliyyətinin səmərəliliyinə xidmət edən bütün zəruri tədbirlər həyata keçirilmiş, işin günün tələblərinə və dəyişən əməliyyat şəraitinə uyğun təmin edilməsi üçün zəruri struktur islahatları aparılmışdır. Belə ki, nazirliyin strukturu və fəaliyyəti beynəlxalq standartlara uyğun şəkildə inkişaf etdirilərək istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətini həyata keçirən, habelə digər sahələr üzrə müvafiq vəzifələri icra edən struktur bölmələri yenidən təşkil edilmişdir. Bundan başqa, nazirliyin maddi-texniki bazası davamlı olaraq gücləndirilir, rayon şöbələri üçün yeni inzibati binalar tikilərək istifadəyə verilir. Eləcə də kadr heyətinin vətənpərvər, ixtisaslı, bilikli gənclərlə komplektləşdirilməsi və səriştəli kadrların irəli çəkilməsi xidməti fəaliyyətin yüksək səviyyədə təşkilinə şərait yaratmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda milli təhlükəsizlik orqanlarının fəaliyyətinin təşkilini daim diqqət mərkəzində saxlamış, bu sahənin inkişafına hərtərəfli qayğı göstərmişdir. Bu gün ulu öndərin müəyyənləşdirdiyi bu yolun ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmizdə milli təhlükəsizlik təmin olunmuş, sabitlik yaradılmışdır".***

*Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin şəxsi heyəti bundan sonra da dövlət müstəqilliyimizin, milli təhlükəsizliyin və mövcud sabitliyin qorunması istiqamətində Ali Baş Komandanın və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qarşıya qoyduğu vəzifələrin icrasında bütün qüvvəsini, imkan və gücünü səfərbər edəcəkdir.*

**Naxçıvan Muxtar Respublikası**
**Milli Təhlükəsizlik Nazirliyinin**
**mətbuat xidməti**

***Bəşəri rəmzə çevrilmiş bir anlayış kimi sülhə yüzlərlə tərif vermək, onu yüzlərlə sözlə ifadə etmək olar. Sülhü əsrlər boyunca bəşəriyyətin ən böyük ehtiyacı da adlandırmaq olar. Bu gün üçün isə sülh yaşı milyon illərlə ölçülən dünyada milyonlarla insanın həqiqət nəğməsidir. Necə ki gündəlik yaşamaq üçün çörəyə, suya və nəfəsə ehtiyac duyuruq, eyni şəkildə bəşəriyyətin sülhə, sevgiyə və tolerantlığa ehtiyacı vardır. Mahiyyətcə dinclik, əmin-amanlıq, qurub-yaratmaq, sosial, iqtisadi və mədəni inkişaf, insanların və insanlığın birlik və bərabərlik şəraitində yaşamasını özündə ehtiva edən sülh bəşəri məfhumdur. Azadlıq, bərabərlik və ədalətlə yanaşı, sülh də hər bir cəmiyyətin, ümumiyyətlə, bəşəriyyətin ən çox arzu etdiyi dəyərlərdəndir. Sabit şəraitdə yaşamalı olan insanlar, min təəssüflər ki, bəzən haqsızlığın, amansızlığın, terrorun və müharibələrin qurbanlarına çevrilirlər. Bütün bunların qarşısının alınmasında sülhün rolu danılmazdır.***

*21 sentyabr Beynəlxalq Sülh Günüdür*

# Sülh bəşəriyyətin ən ali dəyəridir

**Ulu öndər Heydər ƏLİYEV:** *XXI əsr barış əsri, sülh əsri olmalıdır. Bütün münaqişələr, müharibələr aradan götürülməlidir. Artıq dünya sülh yolu ilə, tərəqqi yolu ilə getməlidir, inkişaf etməlidir.*

Bu mənada, əslində, sülhün günü olmur, çünki o, insanlığa hər gün lazımdır. 1981-ci il noyabrın 30-da Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 36-cı sessiyasında ona üzv dövlətlərin, bütün bəşəriyyətin cəhdlərini mərkəzləşdirərək sülh ideallarını inkişaf etdirməyə imkan verən və onların hər vəchlə sülhə sadiqliyini sübut edən xüsusi bir vaxt təyin etmiş və beləliklə, sentyabrın 21-i Beynəlxalq Sülh Günü elan olunmuşdur.

Beynəlxalq Sülh Günü insanların sülh şəraitində yaşamaq hüququ ilə yanaşı, bütün insan hüquq və azadlıqlarının gerçəkləşməsini, hər bir istəyə yalnız sülh şəraitində çatmağın mümkünlüyünü təcəssüm etdirir. İnsanlar arasında sülh dəyərlərini yaymaq, sülh mədəniyyətini təbliğ etmək zəruridir. Ümumiyyətlə, sülh və sabitlik inkişafın təməlidir. Bu proses hər ölkədə və regionda, onun tarixindən, mədəniyyətindən və ənənələrindən asılı olaraq özünəməxsus şəkildə inkişaf etdirilir.

Ötən əsrin 80-ci illərinin sonlarından başlayaraq Ermənistanın Azərbaycana təcavüzü nəticəsində torpaqlarımızın 20 faizdən çoxu işğal olunmuş, 1 milyondan artıq soydaşımız öz doğma yurd-yuvalarından didərgin düşərək qaçqın və məcburi köçkünə çevrilmişdir. Təhsil və mədəniyyət ocaqlarımız, dini və tarixi abidələrimiz yerlə-yeksan edilmiş, terrora məruz qalmışdır. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra böyük müdriklik və uzaqgörənliklə qan tökülməsinin qarşısını almış, 1994-cü ilin mayında atəşkəs haqqında müqaviləni imzalamaqla müharibənin müvəqqəti də olsa, dayandırılmasına, regionda sabitliyin yaranmasına nail olmuşdur. Bu, həm dövlətimizin sülh arzusunun ifadəsi, həm də həqiqi sülhün bərqərar olması üçün Vətəni hər cür müdaxilədən qoruyacaq və sülhün təminatı rolunda çıxış edəcək hərbi qüdrətə gedən yolun başlanğıcı idi.

Ulu öndərin rəhbərliyi ilə Azərbaycan dövləti beynəlxalq ictimaiyyətin diqqətini Ermənistanın Azərbaycan ərazilərinə hərbi təcavüzünə yönəltmiş, münaqişənin sülh yolu ilə həll olunması yolunda ardıcıl tədbirlər görülmüşdür. Lakin Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrində Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınmasına və işğal olunmuş ərazilərin qeyd-şərtsiz azad edilməsi tələblərinə baxmayaraq, Ermənistan işğalçılıq siyasətini davam etdirərək beynəlxalq sülhün tələblərini pozur.

ATƏT-in 1994-cü il Budapeşt, 1996-cı il Lissabon və 1999-cu il İstanbul sammitlərində münaqişənin dinc və siyasi yollarla həlli istiqamətində də bir sıra mühüm təkliflər irəli sürülmüşdü. Xüsusilə 1996-cı ildə ATƏT-in Lissabon zirvə görüşü zamanı ümummilli liderin siyasi uzaqgörənliyi və müdrikliyi sayəsində Azərbaycanın mövqeyi dünyanın 53 dövləti tərəfindən qəbul və müdafiə olunmuşdu. Ümummilli lider tolerantlıq, dünyəvilik istiqamətində milliliyi, Qafqazda sülhü qoruyub saxlamağı başlıca amil hesab edərək demişdir: ***"Biz zor işlədilməsinə əsaslanan düşmənçilik dünyasından əməkdaşlıq və tərəqqi dövrünə aparan tunelin axırında işıq görürük və bu yol ilə birlikdə, dünyanın bütün ölkələri və xalqları ilə əl-ələ verib getməyə hazırıq".***

Ümummilli liderin rəhbərliyi ilə hazırlanan və 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının preambula hissəsində ***"ümumbəşəri dəyərlərə sadiq olaraq, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək"*** Azərbaycan dövlətinin ən ülvi niyyəti kimi təsbit olunmuşdur.

*Ardı 5-ci səhifədə*

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan dövlətinin hər zaman sülhsevər siyasət yürüdəcəyini bəyan edərək demişdir: ***“Azad və demokratik cəmiyyət quruculuğu yolunda qətiyyətli addımlarını atan və geosiyasi cəhətdən olduqca həssas bölgədə yerləşən müstəqil Azərbaycan Respublikası üçün sülhün, sabitliyin hökm sürdüyü təhlükəsiz mühit həyati əhəmiyyət kəsb edən bir məsələdir. Bu zərurət həm də onunla bağlıdır ki, qonşu Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və əsassız ərazi iddiaları müstəqil dövlətimiz və xalqımız üçün böyük problemlər yaratmışdır. Ərazimizin 20 faizi işğal olunmuş, on minlərlə insan öldürülmüş və yaralanmış, yüzlərlə qadın, uşaq və qoca əsir və yaxud girov götürülmüş, 1 milyondan çox insan tarixi-etnik torpağında qaçqın və məcburi köçkünə çevrilmişdir. Təcavüz nəticəsində xalqımızın böyük mənəvi və maddi itkilərə məruz qalmasına baxmayaraq, Azərbaycan Respublikası daxili və xarici siyasətində demokratiya və müstəqil dövlətçilik prinsiplərinə, eyni zamanda beynəlxalq hüquqi normalara daim sadiqlik nümayiş etdirir. Biz bu yolda xalqımızın sülhsevərlik, humanizm və dözümlülük kimi yüksək mənəvi dəyərlərinə arxalanırıq”.***

Ümummilli lider Heydər Əliyevin sülhün və əmin-amanlığın əldə olunması istiqamətindəki əvəzsiz xidmətləri bütün dünya xalqları tərəfindən yüksək qiymətləndirilmişdir. Dahi şəxsiyyətin 1999-cu il noyabrın 1-də Beynəlxalq Atatürk Sülh Mükafatına layiq görülməsi faktı bunun ən gözəl nümunəsidir.

Ulu öndərin sülhsevər siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilir. Təsadüfi deyildir ki, Cənubi Qafqazda ən qüdrətli və güclü orduya malik olan Azərbaycan dövləti ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişənin sülh yolu ilə, qan tökülmədən, beynəlxalq hüquq çərçivəsində həlli istiqamətində əməli işlər görür. ***“Azərbaycan sülhün, təhlükəsizliyin qarantıdır”***, – deyən dövlət başçısının apardığı gərgin daxili və xarici siyasət nəticəsində dünya dövlətləri və nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanın haqq işini dəstəkləyir, ölkəmizin ərazi bütövlüyünü tanıyırlar.

2004-cü il noyabrın 11-də Azərbaycanın işğal olunmuş ərazilərinə əhalinin köçürülməsi barədə məruzə BMT Baş Məclisinə təqdim olundu. Həmin məruzənin məntiqi nəticəsi olaraq, 2006-cı il sentyabrın 7-də BMT Baş Məclisi “Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət” adlı 285 saylı qətnaməni qəbul etdi. Bunun ardınca özünün 62-ci sessiyasında Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi və ətrafındakı silahlı münaqişənin beynəlxalq sülhə təhlükə törətdiyindən ciddi narahatlıq keçirən BMT Baş Məclisi Azərbaycan Respublikasının suverenliyini və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına güclü dəstəyini bir daha təsdiq edərək bütün erməni silahlı birləşmələrinin Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən “Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət”ə dair 2008-ci il 14 mart tarixli 244 saylı qətnamə qəbul etdi.

21 sentyabr – Beynəlxalq Sülh Günü dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da geniş qeyd olunur. Təcavüzkar qonşu dövlət tərəfindən sülhün və sabitliyin pozulması səbəbindən 20 ildən artıqdır ki, Naxçıvan blokada vəziyyətində yaşayır. Bütün bunlara baxmayaraq, muxtar respublikamız yaradılmış ictimai-siyasi sabitlik və əmin-amanlıq şəraitində inkişaf edir, yeni uğurlara doğru addımlayır. Artıq Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası planetin ən təhlükəsiz guşələrindən biridir.

*Bu gün torpaqlarımızı işğaldan azad etməyə qadir güclü ordumuz və inkişaf etməkdə olan müdafiə sənayemiz mövcuddur. Lakin buna baxmayaraq, Azərbaycan dövləti işğal altındakı torpaqlarımızın sülh yolu ilə azad edilməsinin tərəfdarı olduğunu dəfələrlə sübuta yetirmiş, sülhməramlı siyasətə sadiq qalmışdır. Çünki müstəqil Azərbaycan sülhün keşiyində duran, hər zaman qədim dövlətçilik ənənələrinə, eyni zamanda beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinə sadiq olan hüquqi dövlətdir.*

**Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının mətbuat xidməti**

*Yeni nəşrlər*

## Bir nurlu heykəl yarat...




Yəqin ki, bu misra oxucularımızın əksəriyyətinə məlumdur. Əlli milyondan çox insanın fəxri vətəndaşı olan Şəxsiyyətə yazılan bu şerin müəllifinin, bizə görə, Naxçıvanda təqdimata ehtiyacı yoxdur. Bu gün Naxçıvan ədəbi mühitinin önündə gedən Asim Yadigarın, ya da biz gənclərin dili ilə desək, Asim müəllimin şeirləri müasir Naxçıvan ədəbi mühitinin ən parlaq nümunələridir. Çapdan çıxan yeni “Bir nurlu heykəl yarat” kitabını açıb artıq Naxçıvanda dillər əzbəri olmuş şeri bir daha oxuyuram və bu şeirdə üç memar görürəm: söz memarı daş memarından Vətən MEMARInın nurlu bir heykəlinin yaradılmasını istəyir:

*Necə yaradacaqsan, bilmirəm o heykəli,*
*Gəz, dolan qarış-qarış bütün ərzi-cahanı.*
*Bax, gör bir heykəltaraş, bax gör bir*
*memar kimi*
*O necə yaradıbdır anam Azərbaycanı!*

*O, heykəllər yaradıb, əzəmətli, möhtəşəm,*
*O, binalar ucaldıb, başı göylərə dəyir.*
*Bu yurdda ən möhtəşəm sarayları, evləri*
*Xalqım: “Heydər ucaldıb,*
*Heydər qurub”, – söyləyir.*

Od ölkəsi Azərbaycanı zülmətlərə işıq saçan bir simurq quşu misalındadır. “Od qoruqçusu”nun – Azərbaycanı qoruyan şəxsiyyətin missiyası isə şərin, zülmətin əllərini bu yurdun üzərindən kəsmək, yuxulu dünya üzərində Azərbaycan adlı Günəşin doğduğunu dörd bir yana bəyan etməkdir. Azərbaycanın dünyaya Günəş kimi necə doğduğunun XX əsrin 70-ci illərindən bu yana şahidi olan şair yazır:

*Yollarında min tufan, yüz külək əssə belə,*
*Yağılar yolu üstə min silah düzsə belə,*
*Şərin qara əlləri yolunu kəssə belə,*
*Onu Tanrı qoruyur, O, zülməti boğacaq.*
*“Azərbaycan dünyaya Günəş kimi doğacaq!”*

Asim Yadigarın yeni çapdan çıxan kitabının “Heydər zirvəsi” adlanan birinci fəslinin, şəksiz ki, iki qəhrəmanı var – bu, Azərbaycan və onun ulu memarı Heydər Əliyevdir. Millətlər cərgəsində Azərbaycanın varlığını göstərən üçrəngli aylı-ulduzlu bayrağın altında ulu memarın əli nitqini təsvir edən şair Onun həm Ali Baş Komandan, həm də lazım gələn məqamda bir əsgər kimi Vətənini qoruduğunu yazır:

*Bir millətin adından danışır gur səsiylə,*
*Danışır məmləkətə, millətə rəhbər kimi,*
*Danışır Vətənini, torpağını qoruyan*
*Həm Ali Baş Komandan, həm də bir əsgər kimi.*

“Bir nurlu heykəl yarat” kitabında XX əsrin 90-cı illərinin əzablı günlərindən bugünkü inkişafa qədər keçilən yolu təsvir edən şair “Cənnətdə yaşayır bu gün naxçıvanlılar” deyir.

*Dözümümüz, səbrimiz xoş gəlibdi Tanrıya,*
*Naşükür olmamışıq bu qismətə, taleyə.*
*Dözmüşük min əzaba, əl açmışıq Tanrıya,*
*Bəxtimizə nə vaxtsa xoş günlər doğar deyə.*

*Ağ günlərin əlini sıxmışıq gülə-gülə,*
*Bu gün nə möhnətimiz, nə də bir dərdimiz var.*
*Görənlər yaxşı bilir, görməyənlər də görsün,*
*Cənnətdə yaşayırlar bu gün naxçıvanlılar.*

Bu inkişafın təməlində hansı yolun, hansı siyasətin durduğunu yaxşı bilən şair növbəti şeirdə Naxçıvan insanının şəksiz mövqeyini ortaya qoyur – biz ona səs veririk – İlham Heydər oğluna! – deməklə.

*Əməli düz, işi düz –*
*Yolu Heydər yoludur.*
*Qəlbi qurmaq, yaratmaq*
*Eşqi ilə doludur.*
*O da bizə Heydərtək*
*Müqəddəsdir, uludur.*
*Naxçıvan oğul kimi*
*basır onu bağrına.*
*Biz ona səs veririk –*
*İlham Heydər oğluna!*

Asim Yadigarın kitabının birinci bölməsində yer alan “Hücum əmri ver mənə...”, “Döyüş əmri ver mənə...”, “Döyüş havaları çaldırmalıyıq” şeirlərində, sözün əsl mənasında, bir cəngi havası çalınır. “Naxçıvan”, “Dünyanın bəzəyi”, “Naxçıvanım – göz nurum”, “Duzdağ”, “Ulu Cavid” şeirlərində dünəndən bu günə Naxçıvanın keçdiyi yol, yeniləşən və müasirləşən Naxçıvanın söz xəritəsi yaradılır.

Kitabın “Sevgi nağılı” adlanan ikinci bölməsində şairin müxtəlif dövrlərdə yazdığı lirik şeirlər toplanıb. “Hər şeyin sonu var”, “Get gözəlim, get daha”, “Unut bu sevdanı”, “İzi ürəyimdədir”, – deyən müəllif dünyanın oyununa gəlməməyin, gülümsəməyin və ətrafa sevgi saçmağın lazım olduğunu belə anladır:

*Öz oxundan çoxdan çıxan dünyaya,*
*Bizə gülən, bizi sıxan dünyaya,*
*Son döyüşdə bizi yıxan dünyaya*
*Fikir vermə, sevin bir az, gül bir az.*

Kitabda şairin həmçinin 60-dan çox rübaisi də toplanıb. Rübailərində müxtəlif hikmətli mövzulara toxunan şair bəzən düşmənin də dost cildinə girə bildiyindən, gündə min yol dəyişən insanlardan gileylidir:

*Birisi dost kimi gəlib yanıma,*
*Yalan neştərini sancdı canıma.*
*Duymadı dediyi yalanlar ilə,*
*Yeritdi zəhəri mənim qanıma.*

Bəli, bir söz adamı üçün dost cildinə girmiş bir insanın, əslində, düşmən olmasını görməkdən, gündə yüz yol üz dəyişən insanlara sirrini verməkdən daha böyük ağrı ola bilməz. Hələ bu adam söz mülkünün pərdəsi altında gizlənib, söz adamı kimi görünüb zəhər saçırsa, bu, daha ağırdır. Amma bu insanlar qarşısında davranmanın yolunu isə başqa bir rübaisində göstərir şair:

*Yüz pislik görsəm də hər səhər-axşam,*
*Sanma ki, kədərə, qəmə batmışam.*
*Yaxşılıq xəncəri almışam ələ,*
*Bütün pislikləri kəsib atmışam.*

Kitabda müəllifin “Bir gecənin ağrısı”, “Tacmahal”, “Sarı gəlinlər”, “Kalba Musa çeşməsi” adlı 4 poeması, “Amansız intiqam”, “Şir və çaqqal” adlı 2 mənzum dramı da dərc olunub. Kitabdakı sonuncu mənzum dramın sonuncu bəndləri isə həm drama, həm də kitaba yekun söz hesab edilə bilər:

*Qoy ədalət, həqiqət*
*Zəfər çalsın hər yerdə.*
*Xoş niyyətlər çiçəktək*
*Göyərsin könüllərdə.*

*Qəlbimizin qapısı*
*Yaxşılara açılsın.*
*Nurlu ol ki, qəlbinə*
*Günəş nuru saçılsın.*

**Elnur KƏLBİZADƏ**

## Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının buraxılış mərasimi keçirilib



***Sentyabrın 19-da Əlahiddə Ümumqoşun Ordusunun Təlim-Tədris Mərkəzində ixtisas kursunu başa vurmuş müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının buraxılış mərasimi keçirilib.***

Mərasimdə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Polkovnik Mənsum Əhmədov çıxış edərək bildirib ki, ölkəmizdə milli ordu quruculuğu Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə ordu quruculuğuna başlayan ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışından sonra bu sahədə mühüm addımlar atılıb. Həyata keçirilən tədbirlər nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatı yaxşılaşdırılıb, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırılıb. Qeyd olunub ki, ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. 2013-cü ilin dekabr ayında Naxçıvanda Əlahiddə Ümumqoşun Ordusunun yaradılması, bu ordunun maddi-texniki bazasının müasir tələblər səviyyəsində qurulması, kadr hazırlığı istiqamətində atılan uğurlu addımlar muxtar respublikanın etibarlı müdafiəsini təşkil etmək üçün daha geniş imkanlar açıb.

Vurğulanıb ki, bu gün ixtisas kursunu tam başa vurmuş müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kurs dövrü müxtəlif ixtisaslar üzrə bilik və bacarıqlara yiyələniblər. Onlar müxtəlif hərbi hissələrdə öz xidmətlərini layiqincə davam etdirəcəklər.

Məzunlar adından çıxış edən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Rövşən Məmmədov Vətənə şərəflə xidmət edəcəklərinə söz verib.

Valideyn Mərdan Abbasov məzunlara xoş arzularını çatdırıb, övladının hərbçi olmasından böyük qürur hissi duyduğunu deyib.

Sonra məzunlara ixtisas hazırlığı kursu bitirmələri haqda sertifikatlar təqdim edilib.

Sonda məzunların tribuna önündən təntənəli keçidi olub.

**Muxtar MƏMMƏDOV**

***Naxçıvan Dövlət Texniki Kollecində Məhəmməd Tağı Sidqinin 160 illik yubileyinə həsr olunmuş “Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqi” adlı tədbir keçirilib.***

## Naxçıvan Dövlət Texniki Kollecində Məhəmməd Tağı Sidqinin 160 illik yubileyi qeyd olunub

Tədbiri giriş sözü ilə Naxçıvan Dövlət Texniki Kollecinin direktor əvəzi Asəf Ruşanov açaraq qeyd edib ki, Məhəmməd Tağı Sidqinin yaradıcılığında maarifçi şeirlərin xüsusi yeri vardır. Pedaqoji görüşlərində məktəbi “cəhalət dərdinin dərmanı”, müəllimi isə “cəhalət bağının bağbanı” sayan görkəmli maarif xadiminin poetik öyüdnamələrində də elm ilə dünyanın abad olunmasının mümkünlüyündən, dünya dillərini öyrənməyin faydalarından, kamil insan olmaq qayəsindən geniş bəhs olunur. Vurğulanıb ki, digər ədib və ziyalılarımız kimi, maarif fədaisi, şair Məhəmməd Tağı Sidqinin də yaratdığı əsərlər, elm təhsil etməklə nurlanan fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilir, onun ömür yolu və yaradıcılığı ətraflı öyrənilir.

Sonra kollecin Azərbaycan dili və ədəbiyyat müəllimi Səadət Qocayevanın, kitabxanaçı Zəhra Haqverdiyevanın məruzələri dinlənilib. Məruzələrdə bildirilib ki, qədim Naxçıvan torpağının yetirdiyi ziyalılar sırasında Məhəmməd Tağı Sidqinin xüsusi mövqeyi vardır. Onun zəngin, çoxşaxəli yaradıcılığı, qaynar fəaliyyəti on doqquzuncu əsrin ikinci yarısı və iyirminci yüzilliyin əvvəllərində Azərbaycanda maarifin, ədəbiyyatın, filoloji fikrin, mədəniyyətin inkişafında mühüm rol oynayıb. Elmi-pedaqoji dəyərə malik yeddi dərsliyin müəllifi olan görkəmli maarif xadimi ədəbi yaradıcılıqla da məşğul olub. Onun qələminin məhsulu olan uşaq nəsrinin ilk mükəmməl nümunələri, ədəbi-fəlsəfi traktat, poeziya və tərcümə materialları Azərbaycanda maarifçi ədəbiyyatın inkişafında mühüm rol oynayıb.

Qeyd olunub ki, böyük maarifçi ədibimizin çoxşaxəli fəaliyyətində ədəbiyyatın mövzu, ideya və sənətkarlıq baxımından yeniləşməsi, xalqı, cəmiyyəti düşündürən taleyüklü məsələlərə diqqət yetirilməsi, inkişafa mane olan köhnə buxovlardan xilas olub müasir inkişaf yoluna qədəm qoyulmasının vacibliyi barədə qiymətli fikirlər vardır. Yorulmaz maarif fədaisi Məhəmməd Tağı Sidqinin Azərbaycan maarifi və mədəniyyətinin tərəqqisində göstərdiyi xidmətləri C.Məmmədquluzadə belə ifadə edirdi: “Sidqinin Vətənimizə etdiyi qulluğun qədrini bilməkdən ötrü lazımdır müqabilə etmək camaatımızın savad və maarif aləmində olan indiki əhvali ilə on il bundan əqdəm halətini. Tərəqqi çox artıq görünür və əgər söyləsək ki, bu tərəqqinin onda doqquzuna bais məhz Sidqidir, insafdan və həqiqətdən bilmərrə uzaq olmaz. O hörmət və məhəbbət ki, camaatımız mərhuma göstərirdi, indiyə kimi heç bir şəxsə göstərməyib…”

Bildirilib ki, Naxçıvanda maarifçiliyin inkişafında xüsusi xidmətləri olan M.T.Sidqinin anadan olmasının 160 illiyinin qeyd edilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 20 avqust 2014-cü il tarixli və Ordubad şəhərində görkəmli maarifçinin ev-muzeyinin yaradılması ilə bağlı 17 sentyabr 2014-cü il tarixli sərəncamları ədibə böyük ehtiramın ifadəsidir.

**Sona MİRZƏYEVA**

# “Əsrin müqaviləsi”–20

“Əsrin müqaviləsi” gülünc gəldi çoxuna,
Ulu Heydərim baxdı kamanına, oxuna.

Od götürdü Od Oğlu Xəzərin sahilindən,
Oxu qoydu kamana Azərbaycan elindən.

Uçdu, uçdu yanar od, neçə ellər dolaşdı,
Neçə düzdən keçdi o, neçə də dağlar aşdı.

Yerin türk torpağından uçdu türk torpağına
Xəzərin sahilində çağlayan bu yanar od,
Düşdü Ceyhan elinə, düşdü türk torpağına.

Hamıya yuxu kimi gəldi bu uçuş, bu ad...
Ucalan türküm üçün bu, möhtəşəm bir qanad.

Bütün dünya danışdı, heyrət içində yandı,
Bu yolun varlığına ulu Heydər inandı.

İnandı, gün gələcək, türkün ali sözütək
Azərbaycan torpağı dünyada yüksələcək.

Düşmənlərim min hiylə, min ədavət yaratdı,
Bakıdan başlanan yol bir gün Ceyhana çatdı.

Çax-çux baş ağrıtsa da, döndü düşmən əzən daş,
Türkü istəməyənlər əzilsin yavaş-yavaş.

İnanmırdı düşmənim, çıxdıq dünya fövqünə,
Yaxşı gün arzulasan, çıxarsan yaxşı günə.

O, bir hikmət sahibi, O, bir nurdur, O, işıq,
Biz ki qaranlıqlarda işıqdan yaranmışıq.

Son misranı yazanda azan səsi gəlirdi,
Mənim ulu Heydərim göylərə yüksəlirdi.

Bizə ağız büzənlər görürdü biz kimik, kim.
Sərvətim yerə hakim, sərvətim göyə hakim.

***Elman Həbibin “Heydərnamə” poemasından***



## Musiqi Kollecində ustad dərsi keçilib

Dünən Naxçıvan Musiqi Kollecində ustad dərsi keçilib. Tədbiri giriş sözü ilə kollecin direktoru Həsən Seyidov açaraq bildirib ki, bu gün Naxçıvan Muxtar Respublikasında milli musiqimizin inkişafına hərtərəfli dövlət qayğısı göstərilir. Bu qayğı son 18 ildə daha dinamik xarakter alıb, Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə yeni musiqi məktəbləri tikilib istifadəyə verilib, Naxçıvan Dövlət Filarmoniyasının, Naxçıvan Musiqi Kollecinin maddi-texniki bazası gücləndirilib. Filarmoniyanın xarici ölkələrə qastrol səfərləri təşkil edilib, musiqi kollektivləri Rusiya Federasiyasında, Türkmənistanda, Türkiyədə və Polşada uğurlu konsert proqramları ilə çıxış ediblər.

“Muxtar respublikanın musiqi kollektivlərinin əməyi dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilib”, – deyən kollecin direktoru əlavə edib ki, səmərəli fəaliyyətlərinə görə musiqiçilərimiz Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, Prezident təqaüdü və mükafatına layiq görülüblər.

Tədbirdə iştirak edən Azərbaycan Bəstəkarlar İttifaqının üzvlərindən Zenfira Qafarova, Həcər Babayeva və Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri Şəmsəddin Qasımov, təşkilatın üzvü Yeganə Əsədova kollecin müəllim heyətinə ustad dərsi keçiblər.

Qeyd edək ki, Milli Musiqi Günü ilə əlaqədar ustad dərsləri Naxçıvanda fəaliyyət göstərən digər musiqi ocaqlarında da keçilib.

**✍ S.MİRZƏYEVA**

## Dövlət Sosial Müdafiə Fondu maarifləndirici tədbirləri davam etdirir

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun (DSMF) şöbələri tərəfindən maarifləndirici tədbirlərin keçirilməsi davam etdirilir. Növbəti maarifləndirici tədbir DSMF-nin Culfa Rayon Şöbəsi tərəfindən rayonun Xanəgah kəndində keçirilmişdir. Tədbiri Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini Nazim İmaməliyev açaraq tədbirin əhəmiyyətindən danışmışdır.***

Tədbirdə fondun Culfa Rayon Şöbəsinin müdiri Vüsal Məmmədzadə məcburi dövlət sosial sığortasının mahiyyəti və üstünlükləri, məcburi dövlət sosial sığorta haqlarının “onlayn ödəmə” sistemi vasitəsilə ödənilməsinin əhəmiyyəti, sığortaolunanların fərdi uçot sistemi, əmək pensiyaları və sığortaolunanların pensiya təminatı hüququ ilə bağlı məsələlər barədə torpaq mülkiyyətçilərinə geniş məlumat vermişdir.

Qeyd olunmuşdur ki, vətəndaşlara təyin olunan pensiyanın miqdarı sığorta stajından və ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının miqdarından asılıdır. Ona görə də hər bir vətəndaş yaşlı dövrünün maddi təminatının məsuliyyətini əmək fəaliyyəti göstərdiyi vaxtdan düşünməli, harada çalışmasından asılı olmadan, işləməyə başlayarkən, ilk növbədə, əmək müqaviləsini imzalamalı, aldığı əməkhaqqının tam məbləğdə əməkhaqqı cədvəlində göstərilməsinə çalışmalı, işlədiyi dövrlər üçün işəgötürən tərəfindən məcburi dövlət sosial sığorta haqlarının tam miqdarda ödənilməsinə şəxsən maraqlı olmalıdır.

Bildirilmişdir ki, sığortaolunanlara pensiya təminatı hüququ verən sığorta stajıdır. Sığorta stajı sığortaolunanın Dövlət Sosial Müdafiə Fonduna məcburi dövlət sosial sığorta haqları ödədikləri fəaliyyət dövrlərinin məcmusundan ibarətdir. Bu göstərici əmək pensiyası hüququnun müəyyən edilməsi zamanı nəzərə alınan əsas göstəricidir. Əgər sığorta stajı pensiya təyinatına hüquq yaradırsa, onda sığortaolunana pensiya təyinatı aparılır. Sığortaolunanın pensiyasının məbləği isə birbaşa onun əmək fəaliyyəti dövründə ödədiyi məcburi dövlət sosial sığorta haqlarının məcmusundan asılıdır.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Naxçıvan Özəl Universitetində dil-səviyyə imtahanı olmuşdur

2013-2014-cü tədris ilindən etibarən Naxçıvan Özəl Universitetində “xarici dil” (ingilis dili) ixtisası üzrə 1+4 sistemində dil səviyyə imtahanlarının keçirilməsinə başlanılmışdır. Bu sistemin mahiyyəti tələbələrin başlanğıc olaraq kursa hazırlığını və normal dil səviyyəsinin inkişaf etdirilməsini, həmçinin gələcək kurslar ərzində nəzərdə tutulmuş biliklərin daha da möhkəmləndirilməsindən ibarətdir. Xarici dil (ingilis dili) tədrisinin yüksək tətbiqi məqsədilə universitetə yeni daxil olmuş tələbələrin xarici dil səviyyəsi yoxlanılır, keçirilmiş imtahanların nəticələrinə uyğun olaraq, tələbələr hazırlıq kurslarına cəlb edilirlər.

Yazılı və şifahi mərhələdən ibarət dil-səviyyə imtahanında 27 tələbə iştirak etmişdir. Yazılı imtahanda tələbələrin bilik səviyyələri, düzgün orfoqrafik qaydalara əməl olunması, söz ehtiyatı, dünyagörüşü və digər bacarıqları yoxlanılmışdır. Bunun üçün tələbələr “Doğma yurdum – Azərbaycan” mövzusunda inşa yazmışlar. İmtahanın şifahi mərhələsində isə fərdi qaydada qiymətləndirmə aparılmışdır. Tələbələr Xarici dillər (ingilis) kafedrası tərəfindən hazırlanmş biletlər əsasında suallara cavab vermişlər.

Məlumat üçün qeyd edək ki, imtahanda heç bir tələbə müvəffəq qiymət ala bilməmiş, onlar 1+4 layihəsi çərçivəsində hazırlıq kurslarına cəlb edilmişlər.

**Nuray ƏSGƏROVA**

## Veteran güləşçimizin uğuru Avropa mətbuatında

***Naxçıvan Muxtar Respublikasında idmanın bütün sahələrinə olduğu kimi, güləşə də diqqət və qayğı yüksək səviyyədədir. Bunun nəticəsidir ki, idmançılarımız artıq ölkədaxili turnirlərlə yanaşı, beynəlxalq arenalarda da uğurla çıxış etməkdədirlər.***

Bu günlərdə Serbiyanın paytaxtı Belqrad şəhərində veteran güləşçimiz Rövşən İsmayılxanlının qazandığı uğur Avropa mətbuatında böyük marağa səbəb olub. Yunan-Roma güləşi üzrə dünya birinciliyində Azərbaycan yığması da iştirak edib. Həmyerlimiz veteran güləşçi Rövşən İsmayılxanlı millimizin heyətində 130 kiloqram çəki dərəcəsində mübarizə aparıb. Hər il keçirilən dünya çempionatında mütəmadi iştirak edən R.İsmayılxanlı bizimlə söhbətində yarış təəssüratlarını bölüşdü: “Dünya çempionatının hər il keçirilməsi ənənə halını alıb və müxtəlif ölkələrdə təşkil olunmaqla Beynəlxalq Güləş Federasiyasının proqramına daxil edilmiş çempionatdır. Artıq 6-cı dəfə dünya çempionatında iştirak etdim. Ənənəvi çempionatda ilk medalımı 2011-ci ildə əldə etmişəm. O zaman Polşada keçirilən dünya birinciliyində bürünc mükafat qazanmışdım”.

Beynəlxalq Güləş Federasiyasının tədbirlər planına daxil olan dünya çempionatında veteran pəhləvanımız Rövşən İsmayılxanlı Belqrada yollanmazdan öncə millinin heyətində təlim-məşq toplanışı keçib: “Uzun illərdir, güləş üzrə milli komandanın üzvüyəm. Serbiyaya getməmişdən 20 gün öncə Bakıda təlim-məşq toplanışı keçdik. Ümumiyyətlə, hər belə turnirdən öncə yığma bir araya toplaşır və məşq prosesi keçirilir”.

R.İsmayılxanlı Serbiyanın paytaxtında keçirilən dünya birinciliyində 5-ci yerlə kifayətlənib. Yarış barədə məlumat verən veteran güləşçimiz bildirdi ki, dünya çempionatında 130 kiloqram çəki dərəcəsində mübarizə aparırdım və bu çəki dərəcəsində 18 pəhləvan qüvvəsini sınayırdı. İlk turda Türkiyə güləşçisi ilə üz-üzə gəldim və təmiz qələbə ilə rəqibimi məğlub etdim. Ardınca macar güləşçini məğlubiyyətə uğratdım. Finala gedən yolda isə rumın güləşçi ilə görüşdə zədələndim. Nəticədə, qarşılaşma yarımçıq dayandırıldı və 5-ci pillə ilə kifayətlənməli oldum. Növbəti çempionat Yunanıstanda təşkil olunacaq və bu birincilikdə də çıxış edib Azərbaycanı layiqincə təmsil edəcəyəm.

Qeyd edək ki, Rövşən İsmayılxanlının Belqraddakı uğuru yerli mətbuatın da diqqətindən kənarda qalmayıb. Belə ki, ölkənin, eləcə də Avropanın ən nüfuzlu idman nəşrlərindən olan “Sportski jurnal”ı idmançımızın uğurlu çıxışından sonra onun haqqında yazı dərc edib.

**✍ Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 812